# Kitabxanada məşğələlər davam edir

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2015-ci ilin birinci yarısı üçün iş planının 6.62 bəndinin icrası ilə əlaqədar Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında “Kataloqlaşdırma və inzibatçı modulları” mövzusunda məşğələlər keçirilir. 12 may 2015-ci il tarixdən başlayan məşğələlər hal-hazırda da davam edir və bu məşğələlərdə Respublikamızın şəhər və rayonlarının Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin (MKS) əməkdaşları iştirak edirlər.

Məşğələlərin keçirilməsində əsas məqsəd kitabxana işçilərinin ixtisas və peşə səviyyəsinin artırılması, İRBİS-64 sistemində komplektləşdirmə kataloqu haqqında məlumat və yeniliklərin öyrədilməsidir.

Kitabxananın direktoru Tahir Sadıqov kitabxananın fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

Tahir müəllim beynəlxalq konfranslarda çıxışından söhbət açmışdır.

Onu da qeyd edək ki, Azərbaycan həqiqətlərinin beynəlxalq konfranslarda xarici qonaqlara çatdırılmaında T.Sadıqovun fəaliyyəti xüsusilə təqdirəlayiqdir.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının Komplektləşdirmə və elektron kataloq şöbəsinin müdiri Şahnaz Quliyeva və inzibatçı Solmaz Osmanova kitabxana işçilərinin suallarına geniş və ətraflı cavab vermişlər.

Məşğələlərin sonunda iştirakçılara sertifikat təqdim edilmişdir.

**Rauf İLYASOĞLU,**
**“Respublika”.**